Türküstan №32 9 – 15 sentyabr 2025-ci il



# Hindistanda Türklər və Türk mədəniyyəti



Aydın Mədətoğlu Qasımlı
filologiya üzrə fəlsəfə doktoru

***İslamdan öncə Türküstan və Azərbaycan, İslam dövründə də Türküstan, Azərbaycan, Yaxın Şərq və Türkiyə mərkəz olmaqla Çin, Hindistan, Rusiya, Əfqanıstan, Xorasan, Şərqi və Orta Avropa, Balkanlar, Farsistan, Qafqaz, Anadolu, Rumeli, İraq, Suriya, Misir və Şimali Afrika Türklərin başlıca hakimiyyət bölgələri olmuşdur. Türklər bu ölkələrdə bir çox dövlət və İmperatorluqlar qurmuşlar. Bu əzəmətli tablo Türk tarixində maddi və mənəvi olaraq Türklərin şüurunda bir sıra siyasi inanc və məfkurələrin təşəkkülündə mühüm rol oynamışdır. Dünya tarixində bu müstəsna vəsflərlə tanınan, maddi və mənəvi gücləri, siyasi təşkilat və hərbi qabiliyyətləri ilə də əsrlərlə Cahan hakimiyyəti məfkurəsinə bağlanan Türklər böyük İmperatorluqlar quraraq Uzaq Şərq, Yaxın Şərq, Asiya, Avropa və Afrika qitələri arasında din və mədəniyyətləri çulğalaşdıraraq dünya mədəniyyəti tarixində silinməz izlər buraxmış, dünya mədəniyyətinin inkişafına əvəzsiz xidmətlər göstərmişlər. Türklər Çin, Hindistan, Yaxın Şərq, Rusiya, Balkan, Orta Avropa və Afrika xalqlarının qanlarına Türk qanı qatmış, siyasi və mədəni inkişaflarında mühüm rol oynamışlar. Bu gün belə bu sadalanan məmləkətlərdə bir çox yerlərin adları dəyişdirilsə də, qalan adların bir çoxu Türklərin bu ölkələrdəki xatirələrini mühafizə edib saxlamaqdadır.***

Tarixən Türklərin böyük hərəkatlar əsnasında Çin, Şərqi və Orta Avropa, Balkanlar və Yaxın Şərqlə yanaşı, Hindistana da böyük axınlar halında yerləşdiklərini tarixi qaynaqlar da təsdiq etməkdədir. (Bax: Səlcuqlular tarixi, səh. 71-73). Orta əsr tarixçisi Mixail Siryaninin də yazdığına görə: “Türk qövmü köçməyə və istilaya başlayınca Yer üzünü qapsadı. Zira, dünya Türkləri daşımağa kafi gəlmirdi... Önlərində köpəyə bənzər bir heyvan yürüyürdü, fəqət ona yetişə bilmirdilər. Hərəkət edincə “Köç!” deyir və Türklər də onun durduğu yerdə çadır qururdular. Uzun müddət onlara yol göstərdikdən sonra bu heyvan bir daha görünməmiş və ondan bəhs edilməmişdir. Türklər bundan sonra üç qismə ayrıldılar. Hərəsi bir istiqamətə getdilər. Şimala gedənlər Rumların qonşuları olan Kumanlar burada bulduqları xristianlarla birləşdilər. Qərb məmləkətlərinə gedənlər ərəblərə qarışaraq onların dinini qəbul etdilər. Xəlifə ərəblərdən olsa da, (əsər Osmanlı Sultanı, ilk Türk Xəlifə Sultan I Səlimdən öncə yazılmışdır - A.Q.) müsəlmanların hökmdarı Türklər oldular. Bir qismi də yuxarı Hindistana gedərək oralarda bütpərəst və xristian oldular”. (Geniş məlumat üçün bax: Michel le Syrien. Chronique. Fransızcaya tərcümə edən Chabot. Paris 1905, III cild, səh. 149-158).

Türklərin məşhur “Oğuz Xaqan” dastanına görə də səmavi bir mənşədən gələn və xariqüladə vəsflərə sahib olan Oğuz Xaqan Çin, İran, Azərbaycan, İraq, Suriya, Misir, Anadolu, Rus, Frank ölkələri ilə yanaşı Hindistanı da fəth etmişdir. Bu faktı “Şahnamə” müəllifi Fir- dovsi də təsdiq edir. Firdovsiyə görə, Türklərin ilk fatehi olan Əfrasiyab (Fars mənbələrində Oğuz Xaqan və ya Alp Ər Tonqa Əfrasiyab adlandırılmışdır - A.Q.) da bir çox ölkələrlə yanaşı, Hindistanı da fəth etmiş, burada bir çox şəhərlər salmış və özü ilə bağlı bir sıra xatirələr buraxmışdır.

***Bütün bunları nəzərə alan XII əsr böyük Türk milliyətçisi Fəxrəddin Mübarəkşah da Hindistan da daxil olmaqla Çindən Rum ölkələrinə, Şimal Buzlu okean bölgələrinə qədər bütün məmləkətləri ‘Türküstan” adlandırmış və Yer üzündə Türküstan qədər böyük bir ölkənin bulunmadığını özünün məşhur ‘Tarix” əsərində göstərmişdir. (Bax: Tarixi-Fəxrəddin Mübarəkşah. London, 1927, səh. 65).***

***Göründüyü kimi, Türklərin fəth etdiyi ölkələrdən biri də Hindis- tandır. Hindistanda qurulan Türk dövlət və İmperatorluqlarının Türk siyasi və mədəni tarixində xüsusi yeri vardır.***

Hindistanı öz İmperatorluğunun tərkibinə qatan ilk Türklər tarixdə məşhur Ağ Hunlar (420-562) olmuşlar. Belə ki, Ağ Hunlar Bəlx şəhərini ələ keçirdikdən sonra Sasanilərlə savaşmış, Kuşan dövlətinin çökməsindən sonra ortaya çıxan bəzi xalqları asanlıqla öz hakimiyyət- lərinə tabe edərək Hindistanın işğalına başlamış, 480-ci ildə Hindistana ilk yürüşlərini edərək bir neçə ildən sonra Quzey Hindistan bölgəsini öz hakimiyyətləri altına almışdılar. Ağ Hun hökmdarı Toraman (ölümü: 515) Makedoniyalı İskəndər və Kuşan hökmdarı Kanişkadan sonra Hindistanı fəth edən üçüncü fatehdir. Toraman Quptaların daxili çəkiş- mələrindən istifadə edərək Quzey və Batı Hindistanın iç bölgələrinə girərək Pəncab bölgəsini tamamilə Ağ Hun İmperatorluğuna tabe etmişdi. Toramandan sonra hakimiyyətə gələn oğlu Mihrakul İmpera- torluğun sərhədlərini daha da genişləndirərək İrandan başlamış Orta Asiyanın iç bölgələrinə qədər uzanan əraziləri və Hindistanın yarısını öz sərhədləri içərisinə almışdı. Mihrakul Buddistlərə qarşı kəskin mübarizə apararaq Budda məbədgahlarını yerlə-yeksan etmiş, Kəşmir bölgəsindəki Sakka şəhərini paytaxt eləyərək 530-cu ilə qədər bütün Hindistan bölgəsinə axınlar yapmış, Citrakita şəhərini də ələ keçirmiş- di. 550-ci ildə Mihrakulun ölümü ilə İmperatorluq zəifləmiş, ondan sonra kimin Ağ Hun hökmdarı olduğu haqqında tarixdə dəqiq bilgi yoxdur. Sonrakı mənbələr Ağ Hun İmperatorluğundan deyil, yalnız ta- be olan Ağ Hun bəyliklərindən bəhs etmişlər. Daha sonra Ağ Hun impe- ratorluğunun əraziləri Göy Türklər və Sasanilər arasında bölüşdürül- müşdür ki, Hindistan da Göy Türklərin hakimiyyəti altında qalmışdır.

“Hindistanın Atillası” adlandırılan Toraman oğlu Mihrakuldan son- ra Hindistan Göy Türklərin (Bax: Göy Türklər yazımıza, “Türküstan” qəzeti, N-74, səh. 14), daha sonra isə Qəznəli Türklərinin, Dehli Türk Sultanlığının, Səlcuq Türklərinin, ayrı-ayrı Türk komandanlarının və xüsusilə, Teymuroğullarının hakimiyyəti altında olmuşdur.

***Sultan Mahmud Qəznəlinin Hindistanı fəth etməsi ilə Hindistanda yenidən Türk hakimiyyəti bərpa olunmuş (Bax: Qəznəli Türkləri yazımıza, “Türküstan” qəzeti, N-85, səh. 14), bu ölkə xalqının Türklərlə qaynayıb-qarışmasından yeni gözəl və yaraşıqlı bir irq əmələ gəlmişdi.***

***Beləliklə, Hindistan və xüsusilə bu böyük ölkənin quzeyi bəzi istisnalarla VI əsrdən XIX əsrin 50-ci illərinə qədər təqribən 1300 il Türklərin hakimiyyəti altında olmuşdur. Ümumiyyətlə, Hindistanda mövcud bir çox böyük memarlıq abidələri Türk ehtişam, məfkurə və sənət duyğularının təməlini və gözəl maddi nümunələrini təşkil edir.***

Hindistan Türk dövlətləri içərisində Dehli Türk Sultanlığının xüsusi yeri vardır. Quzey Hindistanda 200 ildən artıq (1206-1413) hakimiyyətdə olan Dehli Türk Sultanlığı Qorlu hökmdarı Muiziddin Məhəmmədin 1192-ci ildə Quzey Hindistana vali təyin etdiyi Türk ordu komandanı Qütbəddin Aybək tərəfindən 1206-cı ildə yaradılmışdır. Hələ vali ikən Aliqarxı, Benaresi, məşhur Bihar qalasını, Lahor və Pəncab bölgəsini ələ keçirən Aybək Qorluların Xarəzm Türkləri tərəfindən məğlubiyyətə uğradılmasından istifadə edərək ayrı-ayrı yerlərdə Türk hərbi komandirləri tərəfindən qurulan kiçik xanlıqları öz hakimiyyəti altında birləşdirərək Dehli Türk Sultanlığının əsasını qoymuşdu.

***Qütbəddin Aybəkdən bəhs edən tədqiqatçılar yazırlar ki: ‘Çağının ən böyük fatehlərindən olan Aybək Vindhya dağlarının quzeyində yerləşən bütün Hindistan ərazilərini 1192-1202-ci illərdə işğal etmiş, 1206-cı ildə müstəqil Sultan olmuşdu. Comərd, adil, himayəçi və digər Türk sultanları kimi sporsevər bir hökmdar idi. Bu sporsevərliyi sonda onun 1210-cu ildə ‘Çövkən” oyunu zamanı atdan yıxılaraq ölməsi ilə nəticələnmişdi. Dehlidəki xarabaları günümüzədək qalmış gözəl ‘Qüv- vətül-İslam” məscidi və möhtəşəm ‘Qütüb-Minar” qalasının inşasını da o başlatmışdı”. (Bax:Prof.Dr. Laszlo Rasonyi. Tarihte Tü***rklük. Ankara, 1971, səh. 168).

Dehli Türk Sultanı Aybəkin oğlan övladı olmadığından onun ölümündən sonra kürəkəni Şəmsəddin İltutmuş (1210-1236) bütün Quzey Hindistanı öz hakimiyyəti altında birləşdirərək “Şəmsiyyə Xanədanı”nın (1211-1266) əsasını qoymuş, Dehlini dövlətin paytaxtı elan edərək Pəncabın böyük bir hissəsini, Multanı, Lahoru tutaraq ərazilərini quzeydə Qəznəyə qədər genişləndirmiş, Moğollardan qaçan böyük Türk kütləsini məmləkətinə qəbul edərək Quzey Hindistanda Türk mədəni həyatının davamlılığını bərpa etmiş, Xarəzmşahlara qarşı ölkəsini qoruyaraq 1235-ci ilə qədər Benqal, Qvalior və Uccaynı da hakimiyyətinə qataraq Xəlifə tərəfindən “Hindistan Sultanı” olaraq tanınmışdı.

1236-cı ildə ölən İltutmuşun qabiliyyətsiz oğlunun yerinə qızı Raziyyə sultan olmuş (1236-1239), lakin atasının yetişdirdiyi “Çeyilqan” deyə anılan 40 komandan bununla razılaşmayaraq ölkədə qarışıqlıq yaratmış, nəhayət, “Şəmsiyyə” ailəsindən olan Nəsrəddin Mahmud (1239-1266) ölkədə sabitliyi saxlamaq məqsədilə 40-lardan Uluğ Xan kimi tanınan Balabanı “Naib” təyin etmiş və dövləti 1266-cı ilə qədər idarə etmişdi.

Mahmudun ölümündən sonra yerinə keçən Balaban Dehli sultanı olmuş (1266-1287), Moğol hücumlarının qarşısını almış, Moğolları Lahordan uzaqlaşdıraraq ölkədə quruculuq işləri başlatmışdı. Balabandan sonra yerinə keçən nəvəsi hakimiyyəti uzun zaman əlində saxlaya bilməmiş və hakimiyyət 3 ildən sonra dövlətin əsas hərbi gücünə sahib olan Xalaç (Kalaç) Türklərinin başbuğlarından Cəlaləddin Firuzun (1290-1296) əlinə keçmişdi.



Cəlaləddin Firuz Moğol axınlarının qarşısını almış, qohumu olan ordu başçısı Ələddin Məhəmməd Xalaçı Dukkan üzərinə göndərərək Deogir dövlətinin mərkəzini (bugünkü Dövlətabad şəhəri - A.M.) öz hakimiyyəti altına almışdı. Firuzdan sonra hakimiyyət başına keçən Ələddin Məhəmməd Xalaç (1296-1316) bütün Malva bölgəsini, Quceratı, Racputanayı zəbt edərək “Sultani-əzəm” deyə anılmış, məş- hur “Pampan Camisi”ni yapdırmışdı. Ölümü ilə əlaqədar olaraq ölkədə qarışıqlıq yaranmış, beş il sürən qarışıqlıqdan sonra başqa bir Türk ailəsindən olan Qiyasəddin Tuğluq (1320-1325) iqtidara gələrək ölkədə asayişi bərpa etmiş, nizam-intizam yaratmış, Benqala da hakim olaraq ölkədə quruculuq işləri aparmış, su kanalları çəkdirmiş, Telinqanayı Dehliyə bağlayaraq paytaxtın adını Sultanpura çevirmişdi. Qiyasəddin Tuğluqun oğlu Məhəmməd Tuğluq (1325-1351) bir müddət dövlətin mərkəzini güneydəki Deogirə (Dövlətabada - A.Q.) köçürmüş, Çini zəbt etməyə hazırlaşarkən ölkədə qarışıqlıq yaranmış, nəticədə 1339-cu ildə Benqal dövlətdən ayrılmışdı. Məhəmməd Tuğluq dövrünün elmlə-rinə bələd olan riyaziyyatçı, astronom, Aristotel fəlsəfəsinə bağlı bir mütəfəkkir, gözəl şair və mahir xəttat kimi tanınmışdır.

***Dövlət Firuz Tuğluq zamanında (1351-1388) bir növ toparlanmaqla keçinmiş, quzeydə Teymurun hakimiyyətə gəlməsi ilə əlaqədar olaraq Hindistana Türk axını kəsilmiş və beləliklə də, Firuz Tuğluq yerli xalqa arxalanmaqla tolerant bir din siyasəti yürütməyə məcbur olmuşdu. Firuz Tuğluqdan sonra 10 il müddətində Dehli taxtına 7 sultan çıxmış, mərkəzi hakimiyyət zəiflədiyindən bir çox vilayətlər öz müstəqilliklərini elan etmiş, nəhayət, 1414-cü ildə Dehli Türk Sultanlığı Əfqanıstanlı Seyyid ailəsinin əlinə keçmiş, Dehli Sultanlığı Zahirəddin Baburun Hindistana gəlişinə qədər yüz il boyunca bu sülalə tərəfindən idarə olunmuşdu...***

**(ardı gələn sayımızda)**